# SİMMENTAL, HOLŞTEYN- FRİZ, ABERDİN-ANQUS VƏ QAFQAZ QONUR QARAMAL CİNSLƏRİNİN QARABAĞDA YETİŞDİRİLMƏSİNİN ƏHƏMİYYƏTİ


**Aidə Əsgərova, Tural Abbasov, Dilarə Sultanova**

*Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu, dilara.sultanova.00@ bk.ru*


Heyvandarlıq sahəsində yetişdirilən çoxsaylı heyvan cinsləri ərzaq təhlükəsizliyinin təminatına birbaşa təsir göstərir. İqlim dəyişkənliyi, yem və su çatışmazlığı, xəstəliklər, eləcə də dünya bazarının intensiv dəyişən tələbatı qarşısında heyvanların genetik resursları uyğunlaşmanı və davamlılığı təmin edir.

İşğaldan əvvəlki dövrdə ölkə üzrə iribuynuzlu mal-qaranın 15,1 faizi həmin ərazilərin payına düşürdü. İribuynuzlu heyvandarlıqda Laçın, Ağdam, Füzuli, Qubadlı və Kəlbəcər rayonlarının göstəriciləri yüksək idi.

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, həmin bölgələrdə (1980-ci illərdə) 321 min baş iribuynuzlu heyvan mövcud olub. Hazırki dövrdə isə bu sayın 430 min başa çatdırılması mümkündür. Yaxın gələcəkdə Laçın, Qubadlı və Kəlbəcər rayonlarında iri kənd təsərrüfatı fermalarının yaradılması planlaşdırılır. Bu fermalarda qapalı şəraitdə Simmental və Holşteyn-Friz cinslərinin saxlanılması daha çox məhsul əldə etməyə şərait yaradar.

Avropada geniş yayılmış və Respublikamızda sahibkarlar tərəfindən daha çox yetişdirilən cinslərdən biri olan ətlik-südlük istiqamətli Simmental cinsinin məhsuldarlıq və damazlıq keyfiyyəti yüksəkdir. Cinsin rəngi qırmızı-ala olduğuna baxmayaraq, hazırda ən çox təsadüf edilən rəng sarı-aladır. Cinsin süd məhsuldarlığı və süddə yağ faizi kifayət qədər yüksəkdir. Süd məhsuldarlığı orta hesabla 6000-9000 kq, süddə yağ faizı 3,8 - 4,2%-ə qədər olur. Buzovlar doğulduqda 40-45 kq, inəklər 650-800 kq, buğalar isə 980-1100 kq olur. Ətlik keyfiyyəti yüksək olub, kökəldilmiş heyvanlar 18 aylıqda 400-450 kq, 24 aylıqda isə 500-550 kq canlı kütləyə çatırlar. Yaxşı yemləmə və bəsləmə şəraitində 900-1100 qr gündəlik çəki artımı əldə etmək mümkündür. Təmiz ət çıxarı 50-55% olur. Belə cins heyvanlar davamlı olaraq, yerli şəraitə asanlıqla adaptasiya olunurlar.

Holşteyn-frız cinsı südlük istiqamət cins olub, inəklərin orta süd məhsuldarlığı 7000-12000 kq, süddə yağ faizi 3,2-3,7%-dir. Rəngləri qara-ala olub, iri gövdəlidirlər. Buzovların doğulduqda canlı kütləsi 35-40 kq-a qədər olur. Buğaların canlı kütləsi 1000 kq-a qədər çatır, inəklərin canlı kütləsi isə 550- 600 kq-a qədər olur. Ət çıxarı 50-55%-dir.

Həmçinin, Qarabağın iqlim şəraiti və relyefi bu torpaqlarda açıq şəraitdə Aberdin-anqus və Qafqaz qonur cinslərinin saxlanmasına imkan verir. Aberdin-anqus cinsi ətlik cinsdir. Buğaların canlı kütləsi 750-1000 kq, inəklərin canlı kütləsi isə 500-700 kq-a qədər olur. Cavanların canlı kütləsini intensiv yetişdirilmə nəticəsində (15-16 aylıqda) 450-460 kq-a çatdırmaq mümkündür. Gündəlik çəki artımı 700-800 q-dır. Ət çıxarı 60% təşkil edir. Süd məhsuldarlığı isə 2000 kq-a qədərdir. Qafqaz qonur cinsi südlük-ətlik istiqamətlidir. Bu cinsin süd məhsuldarlığı 4000-4500 kq-dlr. Süddə yağ faizi 3,5-3,7%-ə qədər olur. Buğaların canlı kütləsi 700-800 kq-dır. İnəklərin canlı kütləsi isə 420-450 kq olur. Rəngi qonur, açıq və tünd qonurdur. Bədəni mütənasibdir, sümüyü və əzələsi yaxşı inkişaf edir. 18-20 aylıq cavan heyvanlar otlaq şəraitində kökəldilərkən gündəlik artım 794 qr-a çatır.

Yuxarıda göstərilən cinslərin bioloji təsərrüfat xüsusiyyətlərini nəzərə alaraq, Qarabağda bu cinsləri yetişdirilməklə əhalinin mal əti, inək südünə və süd məhsullarına olan tələbatını ödəmək, həm də insanların işlə təminatı məsələlərini həll etmək olar. Hesablamalar onu deməyə əsas verir ki, Qarabağ bölgəsində heyvandarlığın inkişaf etdirilməsi ölkə üzrə məhsul istehsalını 8%-ə qədər artıra bilər.